**Gülarə İbrahimova,**
*İnformasiya resurslarının komplektləşdirilməsi şöbəsinin müdiri*

# AZƏRBAYCAN MİLLİ KİTABXANASININ SƏNƏD-İNFORMASİYA FONDUNUN FORMALAŞMASI VƏ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ:
## 100 illik fəaliyyətinə qısa baxış

***Xülasə:*** *Məqalədə kitabxananın yarandığı ilk illərdən etibarən fondunun formalaşdırılması və inkişaf etdirilməsi istiqamətindkiə fəaliyyəti qısaca nəzərdən keçirilir. Həmçinin "Kitabxana işi haqqında" qanun əsasında kitabxana fondu və onun komplektləşdirilməsi məsələləri şərh edilir, müasir dövrdə komplektləşdirmənin vəziyyəti statistik təhlil edilir.*

***Abstract:*** *In the article, the activities of the library for the formation and development of its fund from the first years of its existence are briefly reviewed. Also, based on the "Library Work" law, the issues of the library fund and its collection are interpreted, and the state of collection in modern times is statistically analyzed.*

***Резюме:*** *В статье представлен краткий обзор истории формирования и развития библиотечного фонда с первых лет существования библиотеки. Одновременно, на основе закона «О библиотечной работе» поясняются задачи создания и комплектования библиотечного фонда, приводится статистический анализ состояния комплектования на современном этапе.*

***Açar sözlər:*** *Milli Kitabxana, fondun formalaşdırılması, komplektləşdirmə mənbələri, informasiya resursları.*

***Key words:*** *National Library, formation of the fund, collection sources, information resources.*

***Ключевые слова:*** *Национальная Библиотека, формирование фонда, источники комплектования, информационные ресурсы.*

Müasir dövrdə kitabxanaların cəmiyyətin həyatında oynadığı müstəsna rol danılmaz faktdır. Kitabxanalar cəmiyyətdə bir çox funksiyaları yerinə yetirir. Bu funksiyaların yerinə yetirilməsində müstəsna rolu kitabxananın fondu oynayır. Həmin fondun informasiya resursları vasitəsiylə inkişaf etdirilməsi isə komplektləşdirmə prosesi nəticəsində həyata keçirilir. Kitabxananın fəaliyyətinin uğurlu olması, istifadəçilərin sənəd-informasiya tələbatlarını tam şəkildə ödəyə bilməsi xeyli dərəcədə məhz həmin fondun planauyğun və müntəzəm

şəkildə komplektləşdirilməsindən və həmin informasiya resursunun istifadəsinin təşkilindən asılıdır.

Məlumdur ki, indiki dövrdə hər bir ölkədə, cəmiyyətdə ictimai fəaliyyətin bütün sahələri qanunlar və digər hüquqi-normativ sənədlər sistemi ilə tənzimlənir ki, kitabxana işi də bu baxımdan istisna deyildir. Bu səbəbdən də kitabxana fondu və onun komplektləşdirilməsi istiqamətində fəaliyyətin normativ-hüquqi bazasına diqqət yetirmək və ilk olaraq bu sahəyə dair milli qanunvericiliyə müraciət etmək lazımdır.

Ölkəmizdə kitabxanaların funksiyalarının spektri, onların ictimai əhəmiyyəti ilk növbədə 1998-ci ildə qəbul edilmiş "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır. Qanunda kitabxanalara verilən tərifdə göstərilir ki, "kitabxana - elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur".

Tərifdə nəzəri cəlb edən elementlərdən biri də "çap əsərləri və digər informasiya daşıyıcıları" ifadəsidir ki, kitabxanaşünaslıq elmində və praktikasında bunlar qısaca olaraq "fond" termini ilə işarə edilir. Fond istənilən kitabxananın əsas komponentidir ki, o olmasa, kitabxana bir ictimai təsisat kimi cəmiyyətin sənəd-informasiya təminatı kimi başlıca funksiyasını yerinə yetirə bilməz. Buna görə də heç də təsadüfi deyildir ki, Qanunun "Əsas müddəalar" maddəsinin növbəti bəndlərində fond məsələsinə ayrıca diqqət yetirilir. Belə ki, həmin maddənin ayrıca bəndində kitabxana işinin tərifi verilən zaman, onun elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə fəaliyyəti sahəsi kimi kitabxana sisteminin təşkili və inkişafını, informasiya resurslarının komplektləşdirilməsi, hüquqi və fiziki şəxslərə kitabxana, informasiya və biblioqrafiya xidməti qaydalarını, kitabxanaçı-biblioqraf kadrların hazırlanmasını, kitabxanaların inkişafının elmi-metodik təminatını əhatə edən fəaliyyət sahəsi olduğu göstərilir. Bu maddənin son bəndində isə fonda ayrıca tərif verilərək onun ictimai istifadə məqsədilə kitabxananın vəzifələrinə uyğun şəkildə formalaşmış çap əsərləri və digər məlumat daşıyıcılarının məcmusu olduğu göstərilir. Qanunun "Kitabxana fəaliyyətinin əsas istiqamətləri" adlı 4-cü maddəsində həmin fəaliyyətinin əsas istiqamətlərindən bəhs edilərkən bu istiqamətlərdən birinin də "sənəd-informasiya fondlarının formalaşması" olması göstərilir. Bundan əlavə, Qanunun 3-cü, "Kitabxana fondu" fəslinin "Kitabxana fondunun tərkibi" adlı 12-ci maddəsində göstərilir ki, kitabxana fondunun tərkibinə kitab, jurnal, qəzet, digər çap məhsulları, audiovizual və texniki vasitələrlə oxunan materiallar, əlyazmalar və başqa informasiya resursları daxildir.

“Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununda kitabxanaların komplektləşdirilməsi məsələsi də xüsusi olaraq nəzərə alınmışdır. Qanunun “Kitabxana fondlarının təchizi” adlı 14-cü maddəsində göstərilir ki, kitabxanalar dövlət və qeyri-dövlət nəşriyyatları tərəfindən buraxılan, profilinə uyğun çap məhsullarını və digər informasiya daşıyıcılarını birinci növbədə almaq hüququna malikdir və bu hüquq müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyənləşdirilmiş qaydada kitabxana kollektoru, kitab ticarəti müəssisələri, nəşriyyat orqanları, ayrı-ayrı şəxslərlə aparılan müvafiq əməliyyatlar, məcburi nüsxələrin alınması, abunə, bağışlama və vərəsəlik əsasında miras qalmış nəşrlərin verilməsi, habelə beynəlxalq və ölkədaxili kitab mübadiləsi yolu ilə təmin edilir. Məhz buna görə, Azərbaycan Respublikasının qanunlarının, digər hüquqi-normativ sənədlərinin cəmiyyətin kitabxana xidmətinə, onun sənəd-informasiya resurslarına olan ehtiyaclarını nəzərə almaqla M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında həmişə sənəd fondunun formalaşmasına və inkişafına xüsusi diqqət yetirilir. Burada kitabxanaların dövlət və qeyri-dövlət nəşriyyatları tərəfindən buraxılan, profilinə uyğun çap məhsullarını və digər informasiya daşıyıcılarını birinci növbədə almaq hüququna malik olması göstərilir və qeyd edilir ki. bu hüquq müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyənləşdirilmiş qaydada kitabxana kollektoru, kitab ticarəti müəssisələri, nəşriyyat orqanları, ayrı-ayrı şəxslərlə aparılan müvafiq əməliyyatlar, məcburi nüsxələrin alınması, abunə, bağışlama və vərəsəlik əsasında miras qalmış nəşrlərin verilməsi, habelə, beynəlxalq və ölkədaxili kitab mübadiləsi yolu ilə təmin edilir. Qanunda göstərilir ki, ilk növbədə Milli Kitabxana və eləcə də bir sıra digər kitabxanalar müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyənləşdirilmiş qaydada ölkədə nəşr edilən çap məhsullarının məcburi nüsxələrini almaq hüququna malikdir.

Azərbaycan Milli Kitabxanası öz sələfi olan, bu il  kitabxana fondunun formalaşdırılması və inkişafı sahəsində yaranmasının 100 illik yubileyini qeyd etdiyimiz Azərbaycan Mərkəzi Dövlət Kitabxanasının ənənələrini layiqli şəkildə davam etdirir. Milli Kitabxananın fondunun yaradılaraq inkişaf etdirilməsi məsələsi milli kitabxanaşünaslıq elmində əsasən Milli Kitabxananın direktoru, professor K.M.Tahirovun elmi araşdırmalarında öz əksini tapmışdır.

Kitabxananın arxiv sənədlərindən məlum olur ki, onun yaranması və fəaliyyətinin başlanğıc dövründə fondun komplektləşdirlməsi sahəsində ilk addımlar, onun ilkin fondunun formalaşdırılması o zamana qədər Bakıda mövcud olmuş kitabxanalardakı ədəbiyyatın müəyyən bir qisminin ona verilməsi ilə həyata keçirilmişdi. Bu zaman həmin ilkin fond əsasən Bakı şəhəri

İctimai Məclisinin kitabxanasının, keçmiş İmperator Texniki Cəmiyyətinin Bakı şöbəsinin kitabxanasının və keçmiş Erməni Xeyriyyə Cəmiyyətinin kitabxanasının fondlarından kitabların gətirilməsi əsasında formalaşdırılmışdı. Bundan başqa, kitabxananın açılışına hazırlıq dövründə həm də respublikada nəşr edilən ədəbiyyat da ayrıca olaraq gələcək kitabxana üçün toplanmışdı. Kitabxananın açılışı ərəfəsində onun fondunun həcmi 20 441 nüsxə kitabdan ibarət idi.

Kitabxananın fondunun intensiv şəkildə komplektləşdirilməsində məcburi nüsxələrin də əhəmiyyəti böyük olmuşdur. Milli Kitabxananın direktoru, professor K.M.Tahirov qeyd edir ki, hələ Mərkəzi Kitabxananın açılışına hazırlıq mərhələsində Xalq Maarif Komissarlığının həyata keçirdiyi ən mühüm tədbirlərdən biri kitabxananın 1923-cü ilin yanvar ayından respublikada nəşr edilən bütün kitab, jurnal və qəzetlərin iki məcburi nüsxələrinin alınması haqqında dekretin hazırlanıb Xalq Maarif Komissarlığı tərəfindən təsdiqlənməsi idi. Bundan əlavə, kitabxananın komplektləşdirilməsinə yardımda 1920-ci ildən başlayaraq fəaliyyət göstərən Mərkəzi Kitabxana Kollektorunun fəaliyyətini də qeyd etmək lazımdır. Sonrakı illərdə qeyd edilən komlektləşdirmə kanallarından başqa, ayrı-ayrı şəxslərin kitabxanalarının satın alınması, hədiyyələrin alınması, kitabxanaların nümayəndələrinin İttifaqın müxtəlif şəhərlərinə ezam edilərək orada yerləşən kitabxanaların fondlarında, kitab ticarəti müəssisələrində olan və Azərbaycan üçün əhəmiyyət kəsb edən ədəbiyyatın alınması metodu da istifadə edilirdi. Beləliklə, Mərkəzi Dövlət Kitabxanasına yarandığı ilk illərdən başlayaraq fondun komplektləşdirilməsi sahəsində bütün məlum metodlardan geniş istifadə edilirdi və məhz bunun sayəsində az bir zaman ərzində kitabxananın fondunun əhəmiyyətli dərəcədə zənginləşməsi mümkün oldu.

Yaradılmasına hazırlıq dövründən başlayaraq, eləcə də fəaliyyəti dövründə kitabxananın fondunun mövzu-tipoloji əhatəsi barədə yekdil bir rəy, məqsəd formalaşmışdı ki, bu da həmin fondun universallığına nail olmaq idi. Çünki bu kitabxana bütün ixtisaslarda, bütün fəaliyyət sahələrində çalışan, təhsil alan, maraqlanan şəxslər üçün nəzərdə tutulurdu. Məhz bu səbəbdən burada bütün elmlər və fəaliyyət sahələrinə dair rəsmi, elmi, praktiki, soraq, tədris, informasiya, kütləvi, normativ, istehsalat nəşrləri komplektləşdirlirdi.

Kitabxananın fondunun komplektləşdirilməsinin təşkilindən bəhs edərkən belə bir məqama da diqqət yetirmək lazımdır ki, 30-cu illərdən başlayaraq Mərkəzi Dövlət Kitabxanası İttifaqın digər iri kitabxanaları ilə qarşılıqlı faydalı əlaqələr qururdu. Bu əlaqələr kitabxanaların fəaliyyətinin bir çox istiqamətləri ilə yanaşı fondların komplektləşdirilməsi məsələsini də əhatə edirdi. Kitabxanalar öz mübadilə fondları vasitəsi ilə bir-birlərinin fondlarının çatışmayan, ehtiyac olan ədəbiyyatla komplektləşdirilməsinə qarşılıqlı yardım edirdilər.

Kitabxananın fondunun komplektləşdirilməsi istiqamətində görülən ardıcıl işin nəticəsi olaraq 1923-cü ildə ümumi miqdarı 5 212 nüsxə olan fond 1932-ci ildə artaraq 260 499 nüsxəyə çatmışdı ki, bu da 52 dəfə artım demək idi. Bəhs edilən dövrdə kitabxananın fondunun komplektləşdirilməsi sahəsində xüsusi əhəmiyyətə malik digər hadisə 1933-cü ildən etibarən İttifaq səviyyəli qərara əsasən SSRİ-də nəşr edilən bütün ədəbiyyatın məcburi nüsxələrinin bütün müttəfiq respublikaların mərkəzi kitabxanalarına, o cümlədən Azərbaycan Dövlət Kitabxanasına göndərilməsi oldu. Belə bir qərarın qəbul edilməsi az bir müddət ərzində kitabxananın fondunun daha da sürətlə artmasına zəmin yaratdı və artıq 1933-cü ildə bütün SSRİ-də nəşr edilən əsərlərin məcburi nüsxələrini alınması hesabına kitabxananın fondu 500 000 nüsxəyə çatdı.

Kitabxananın fondunun ardıcıl şəkildə komplektləşdirilməsi prosesi vətənimizin tarixinin ən ağır dövrü olan Böyük Vətən Müharibəsi illərində də davam edirdi. Bunun nəticəsində 1941-1945-ci illərdə kitabxananın fondu 248 575 nüsxə artmışdı.

Böyük Vətən Müharibəsinin bitməsindən sonra başlanan bərpa və inkişaf dövrü ölkə həyatının bütün istiqamətləri kimi kitabxana işinin də dirçəlməsi, intensivləşməsi ilə müşayiət olunurdu. Bu dövrdə kitabxananın fondunun intensiv şəkildə zənginləşdirilməsi nəticəsində 1946-1950-ci illər ərzində kitabxanaya 176 487 nüsxə kitab, 564 904 nüsxə qəzet, 52 950 nüsxə jurnal və 20 000 nüsxədən anıq xəritə, atlas, təsviri sənət materialları, patent, standart və digər materiallar daxil olmuşdur.

50-60-cı illərdə kitabxananın fondunun kompletləşdirilməsinin metodik baxımdan təkmilləşdirilməsinə böyük diqqət yetirilirdi. Bu məsələdən bəhs edən prof. K.M.Tahirov göstərir ki, bu dövrdə kitabxananın fondunun elm sahələri üzrə tərkibinə gəldikdə, Milli Kitabxananın informasiya resursları hərtərəfli, kompleks şəkildə inkişaf etdirilərək onun sosial funksiyalarına tam uyğun olmuşdu. Belə ki, hər il Milli Kitabxananın fondu elm və texnikanın ən yeni nailiyyətlərini əhatə edən çap materialları ilə müntəzəm surətdə zənginləşir, ictimai-siyasi, təbii-elmi, texniki, humanitar sahələrə dair SSRİ-də nəşr edilən bütün əsərlərlə dolğun surətdə tamamlanırdı. Bu dövr kitabxana fondunun komplektləşdirilməsinin xeyli intensiv dövrü hesab edilə bilər. Belə ki, əgər 1950-ci ildə kitabxananın fondunda təqribən 1 milyon nüsxə sənəd var idisə, 1960-cı ildə bu rəqəm artaraq 2 584 424 nüsxəyə çatmışdı.

Komplektləşdirmə prosesinin intensiv şəkildə aparılması növbəti onillikdə də davam edirdi və bu zaman komplektləşdirmənin digər kanallarından da intensiv istifadə edilirdi. Məsələn, 1964-cü il kitabxana komplektləşdirilməsində İttifaq və dünya kitabxanaları ilə ədəbiyyat mübadiləsindən daha geniş bəhrələnərək, İttifaqın 63, xarici ölkələrin 6 kitabxanası ilə mübadilə əlaqələri quraraq 10 min nüsxədən çox ədəbiyyat əldə etmişdi.

Kitabxananın fondunun zənginləşdirilməsi işi sonrakı onilliklər ərzində də davam etdirilirdi. Belə ki, 1980-ci ildə fondu artaraq 3 311 510 nüsxəyə çatmışdı. Bu onillikdə kitabxananın təkcə kitab fondunun illik artımı təqribən 50 min nüsxə, dövri mətbuat fondunun artımı isə təqribən 60 min nüsxə idi.

Lakin təəssüf ki, 1980-ci illərin sonlarında bütün SSRİ-də başlayan ictimai-siyasi və iqtisadi böhran, SSRİ-nin dağılması və iqtisadi əlaqələrin pozulması, bunun ardınca separatçı və millətçi qonşumuzun respublikamıza qarşı təcavüzü, çox böyük miqdarda qaçqınların və məcburi köçkünlərin meydana gəlməsi bir çox sahələrə, o cümlədən nəşriyyat işinə, kütləvi kommunikasiyalara və kitabxana işinə çox böyük zərbə vurdu. Belə neqativ təsir kitabxananın da fəaliyyətindən yan keçmədi. Kitabxananın ənənəvi komplektləşdirmə kanalları pozuldu, dövlət nəşriyyatlarında buraxılan ədəbiyyatın çeşidi azaldı və məcburi nüsxə intizamı pozuldu, özəl nəşriyyat və redaksiyalar isə ümumiyyətlə nəşr etdirdikləri kitab və dövri nəşrləri kitabxanaya təqdim etməkdən imtina edirdilər. Lakin o zamankı prezident, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycanın dövlətçiliyi, ölkəmizin təbii sərvətlərinin dünya bazarlarına çıxarılması yolu ilə iqtisadiyyatı möhkəmləndikcə, daha sonra, 2003-cü ildən isə Ümummilli Liderin işini onun layiqli davamçısı Prezident İlham Əliyev uğurla davam etdirdikcə, ictimai həyatın bütün sahələrində, o cümlədən təhsildə, elmdə, mədəniyyətdə, cəmiyyətin sənəd-informasiya təminatında dirçəliş, əhəmiyyətli irəliləyişlər olduqca, ölkədə kitabxana işində müsbət dəyişikliklər baş verdi ki, bu da öz təsirini kitabxananın fəaliyyətində, o cümlədən onun sənəd fondunun zənginləşdirilməsində, komplektləşdirmə işinin genişlənməsində göstərdi. Bunu kitabxanada fondun komplektləşdirilməsinə dair statistik faktlar da təsdiq edir. Məsələn, 2000-ci ildə kitabxananın fondunda cəmi 4 482 986 nüsxə nəşr var idisə, on il ərzində bu rəqəm təxminən 166 min nüsxə artaraq 2022-ci ildə 4 648 976 nüsxə oldu. Kitabxananın komplektləşdirmə fəaliyyətinə dair daha detallı göstəricilərə gəldikdə isə, əgər 2000-ci ildə kitabxana tərəfindən 13 780 nüsxə nəşr (ondan 6773 nüsxəsi kitab) komplektləşdirilmişdisə, 2001-ci ildə bu rəqəmlər müvafiq olaraq 9992 (5069) nüsxə, 2002-ci ildə 11 846 (7106) nüsxə, 2004-cü ildə 14 230 (10 221) nüsxə, 2006-cı ildə 15 164 (11 081) nüsxə, 2008-ci ildə 25 672 (11 548) nüsxə, 2010-cu ildə 20 767 (15 077), 2012-ci ildə 20 045 (15 521) nüsxə, 2014-cü ildə 24 049 (17 279) nüsxə, 2016-cı ildə 24 929 (14 251) nüsxə, 2018-ci ildə 22 766 (15 147) nüsxə, 2020-ci ildə 13 435 (6910) nüsxə, 2021-ci ildə 20 206 (14 925) nüsxə, 2022-ci ildə isə 29 481 (19 198) nüsxə olmuşdur. Bu rəqəmlər göstərir ki, son iyirmi il ərzində kitabxanada fondun komplektləşdirilməsi işinə böyük diqqət göstərilir, məcburi nüsxə haqqında qanun tələblərinin icrasına ciddi nəzarət edilir, eyni zamanda, fondun digər mənbələr hesabına zənginləşirilməsi həyata keçirilir.

Milli Kitabxananın sənəd fondunun belə dinamik şəkildə inkişaf etməsində onun İnformasiya resurslarının formalaşdırılması şöbəsinin töhfəsi böyükdür. Şöbə zəngin və maraqlı inkişaf yolu keçmişdir. Komplektləşdirmə funkisiyaları kitabxananın yarandığı gündən vacib bir məsələ kimi qarşıya qoyularaq müntəzəm şəkildə həyata keçirilir. Hal-hazırda şöbə fəaliyyətini 2022-ci ildə təsdiq edilmiş öz son Əsasnaməsi əsasında qurur. Şöbənin Əsasnaməsində onun qarşısında duran əsas funksiya və vəzifələri əks olunur. Burada qeyd edilir ki. şöbənin vəzifələri kitabxananın fondlarını informasiya resursları ilə təmin etməkdən, kitab fondlarının, daxil olan informasiya resurslarının elektron kataloq üzrə ilkin qeydiyyatını aparmaqdan, şöbənin plan və hesabatlarını hazırlamaqdan və s. ibarətdir.

Şöbənin funksiyalarına isə məzmunca köhnəlmiş, istifadəyə yararsız və çoxnüsxəli ədəbiyyatı elektron kataloq və kitabxananın uçotundan çıxarmaqdan, fondu informasiya resursları ilə komplektlədirməkdən, yeni daxil olan ədəbiyyatı qoşma sənədlə qəbul etməkdən, işlənmiş ədəbiyyatı şöbələrə təhvil verməkdən, yeni daxil olan və çıxarılan ədəbiyyatın uçotunu aparmaqdan və s. ibarətdir.

Məlumdur ki, şöbənin fəaliyyətinin əsas istiqamətlərindən biri kitabxananın komplektləşdirmə mənbələrinin müəyyənləşdirilməsi və həmin mənbələrlə müntəzəm olaraq iş aparmaqdır.

Şöbə öz üzərinə düşən funksiya və vəzifələri lazımınca yerinə yetirmək üçün ardıcıl şəkildə fəaliyyət göstərir. 2022-ci ildə şöbə komplektləşdirməni əsasən Respublika Kitabxana Kollektoru (7660 nüsxə), müəllif və naşirlərin hədiyyələri (5937 nüsxə), məcburi nüsxələrin qəbulu (5850 nüsxə), səfirlik və xarici təşkilatlar (2588 nüsxə), elmi-tədqiqat institutları (1730 nüsxə), ölkədaxili kitabxana mübadiləsi və s. vasitəsi ilə həyata keçirmişdir. Burada maraqlı bir məqamı da qeyd etmək lazımdır ki, bu da kitabxananın fondunun zənginləşdirilməsi üçün tanınmış ziyalıların, incəsənət xadilmlərinin şəxsi kitabxanalarının alınmasıdır. Ötən il bu metodla görülmüş iş tanınmış rəssam və sənətşünas Rasim Əfəndiyevə məxsus şəxsi kitabxanadan 974 nüsxə kitabın alınması olmuşdur.

2022-ci ildə fonda daxil olan 29 481 nüsxə ədəbiyyatın 20 118 nüsxəsi Azərbaycan, 5 215 nüsxəsi rus və 4 148 nüsxəsi xarici dillərdə olmuşdur.

İl ərzində fonda daxil olan sənədlərin 19 198 nüsxəsi kitab və kitabça, 3416 nüsxəsi jurnal, 1203 nüsxəsi qəzet, 378 nüsxəsi not nəşrləri, 2863 nüsxəsi izonəşrlər (onlardan 2464-ü afişalar, 372-si plakatlar) olmuşdur.

23 nüsxə elektron nəşr (müxtəlif tipli disklər), əlyazma formasında olan kitablar (8 nüsxə) və not əlyazmaları (2183 nüsxə) da komplektləşdirilmişdir.

Bu rəqəmlər kitabxananın fondlarına daxil olan sənədlərin tipoloji baxımdan necə geniş spektrə malik olduğunu göstərir.

Milli Kitabxananın fondunun inkişafının Ulu Öndər Heydər Əliyev mərhələsinin davamı kimi bu gün də kitabxana fonduna ayrı-ayrı görkəmli şəxsiyyətlərin kolleksiyalarının axını davam etməkdədir. Kitabxana fonduna milli ədəbiyyatın daxil olması əsaslı şəkildə artmışdır. Bu gün "Azərbaycan ədəbiyyatının arxivi" şöbəsinin nəzdində milli izonəşrlər bölməsi yaradılmışdır.

Şöbəyə daxil olan ədəbiyyat mütəmadi olaraq "Yeni kitablar" sərgi zalında və kitabxananın rəsmi internet səhifəsinin "Yeni kitablar" bölməsində istifadəçilərin nəzərinə çatdırılır.

Azərbaycan Milli Kitabxanası Azərbaycan Respublikasının ən böyük milli kitabsaxlayıcısı, milli mətbuatımızın və kitabiyyatımızın, informasiya resurslarının dövlət arxivinin yaradıcısı və ölkənin bütün kitabxanaları üçün elmi metodik mərkəzdir.

Yekun olaraq söyləmək mümkündür ki, kitabxana yaranan gündən onun işində sənəd fondlarını zənginləşdirmək, optimal komplektləşdirməni həyata keçirmək üzrə fəaliyyət prioritet istiqamətlərdən biri olmuşdur və həmin fəaliyyətin intensiv və düzgün həyata keçirilməsi nəticəsində onun fondu kitabxananın qarşısında duran vəzifələrə tam uyğun olan zəngin sənəd-informasiya resursuna çevrilmişdir.

## ƏDƏBİYYAT


**1.** Azərbaycan Milli Kitabxanasının 2000-2022-ci illər üçün hesabatları.

**2.** Kitabxana işinə dair normativ aktlar: Qanun və qanun qüvvəli normativ hüquqlu sənədlər toplusu /tərt.ed. K.Tahirov.- Bakı, 2004.- 52 s.

**3.** Xələfov, A. M.F.Axundov adına Milli Kitabxana: 90 il elm və mədəniyyətin xidmətində /Abuzər Xələfov; Red. K.Aslan.- Bakı: Bakı Universiteti məşriyyatı, 2013.- 64 s.

**4.** Tahirov, K. Azərbaycanda kitabxana quruculuğunun banisi: (Ulu Öndər Heydər Əliyev haqqında) /Kərim Tahirov //Xalq qəzeti.- 2012.- 12 dekabr.- S.12.

**5.** Tahirov, K. Dünya milli kitabxanaları. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası: dərs vəsaiti /K.M.Tahirov; elmi red. A.Xələfov; Rəyçi. K.Aslan, P.Kazımi; Azər. Resp. Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti.- Bakı: Bakı Universiteti, 2013.- 211 s.

**6.** Tahirov, K. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası-85 /Kərim Tahirov //İqtisadiyyat.- 2008.- 20-26 noyabr.

**7.** Tahirov, K. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının yaranması və inkişafı (1923-1959-cu illər): Tarix elmləri namizədi alimlik

dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya /Kərim Tahirov; Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası.- Bakı, 2009.- 172 s.

**8.** Tahirov, K. Milli Kitabxanada elektron informasiya resurslarının formalaşması və inkişafı /Kərim Tahirov //Kitabxanalar milli mədəniyyətin dirçəliş resursudur.- Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.- S.229-237.

**9.** Самедова, М.Х. Азербайджанская Республиканская Библиотека им. М.Ф.Ахундова: опыт работы /М.Х.Самедова; ред. А.Н.Лерман; Мин. Культуры Азерб. ССР, Азерб. Респ. Библ. им. М.Ф.Ахундова.- Баку, 1959.- 68.